Xususi razılıq (lisenziya) verilən fəaliyyət novlərinin siyahısını təkmilləşdirmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. "Bəzi fəaliyyət novlərinə xususi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nomrəli Fərmanı ilə təsdiq edilmiş "Xususi razılıq (lisenziya) tələb olunan fəaliyyət novlərinin Siyahısı"na (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 555; 2003-cu il, № 3, maddə 153, № 10, maddə 570; 2005-ci il, № 2, maddə 69, № 4, maddələr 301, 307, № 8, maddə 721, № 10, maddə 919, № 12, maddələr 1104, 1117, 2006-cı il, № 7, maddə 591, № 9, maddə 743, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 483 nomrəli Fərmanı) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1.1. Fərmanın 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Xususi razılıq (lisenziya) tələb olunan fəaliyyət novlərinin siyahısı və həmin fəaliyyət novlərinə xususi razılıq (lisenziya) verilməsinə gorə odənilən dovlət rusumunun məbləğləri" (Əlavə № 2) təsdiq edilsin.";

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə № 2 yeni redaksiyada verilsin (əlavə olunur).

2. "Dovlət rusumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nomrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №12, maddə 767) 1-ci bəndinin 5-ci abzası cıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay muddətində:

3.1. quvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və muvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ huquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman 2007-ci il yanvarın 1-dən quvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 29 dekabr 2006-cı il.***